Təsdiq edirəm:
"İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi" MMC-nin direktoru

Aqşin Məcidov ____________
Tarix: 10.10.2023

# Keyfiyyət siyasəti

"İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi" MMC-nin (bundan sonra – Mərkəz) keyfiyyət siyasəti təşkilatın Azərbaycan Respublikasının qanunvericiliyinə, ISO 9001:2015 və ISO 10006:2017 beynəlxalq standartlarının tələblərinə uyğun olaraq Keyfiyyəti İdarəetmə Sisteminin (bundan sonra KİS) prinsipləri çərçivəsində fəaliyyətinin göstəricisidir.

Bizim missiyamız qlobal və strateji təşkilat olduğumuz yerli bazarda müştərilərimizə məqsədlərinə nail olmaq və bizneslərini idarə etmə proseslərini, məlumatlarını hökümət buludunda yerləşdirərək təhlükəsizliyin təmin edilməsi şərti ilə inkişaf etdirməyə imkan verən çevik, innovativ və effektiv rəqəmsal həllər təqdim etməkdir. Biz inanırıq ki, yaradıcılıq, məhsul yönümlülük dəyərlərinə sadiq qalmaqla uzun illər ərzində müştərilərimizə müstəsna dəyər təqdim etməyə davam edəcəyik.

Biz Keyfiyyəti İdarəetmə Sistemimizin tətbiqi və davamlı təkmilləşdirilməsi yolu ilə müştərilərimizin gözləntilərinə cavab verən və müəyyən edilmiş keyfiyyət məqsədlərinə uyğun xidmətlər göstərməyi öhdəmizə götürürük. Bu açıqlamaya əsasən KİS-in əhatə dairəsi aşağıdakı kimidir:
**Layihələrin idarə olunması çərçivəsində İnformasiya sistemlərinin yaradılması, dəstəyi və inkişafı.**
Qeyd olunan əhatə dairəsinə müvafiq əməliyyatlar daxildir:

1. İT layihələrin idarə edilməsi
2. Proqram təminatının hazırlanması
3. Texniki dəstək

Həmçinin bizim KİS-in bütün proseslərinin müvafiq sənədlərdə müəyyən edilmiş öz əhatə dairəsi var. Mərkəz öz missiyasına nail olmaq üçün müvafiq strateji istiqamət qəbul etmişdir:

"Biz yüksək texnologiyalar sahəsində fərqli istiqamətlərdə ixtisaslaşmış, transformasiyaya açıq, yüksək potensiallı və mehriban kollektivi olan, müştərilər üçün daim əlçatan İT şirkətiyik. Fəaliyyətimizdə şəffaflığı əsas tutaraq müasir idarəetmə metodlarının tətbiqi sayəsində effektiv, sərbəst və yaradıcı iş mühiti formalaşdırmağa nail olmuşuq və daimi təkmilləşmə üçün lazımi resursları təqdim etməyə hazırıq".

Mərkəzin bütün işçiləri təşkilat daxilində keyfiyyət idarəetmə sisteminin tətbiqi və təmin edilməsində iştirak edir. KİS-in tətbiqini, təmin edlməsini, təyin olunmuş məqsəd və hədəflərin əldə edilməsini asanlaşdırmaq üçün şirkətimiz proses yanaşmasından istifadə edir. Bütün əməliyyat prosesləri müvafiq axın sxemlərində göstərilmişdir. KİS ilə bağlı bütün dəyişikliklər və digər qərarlar müvafiq məlumatların təhlilindən sonra qəbul edilir.

Mərkəzin məqsəd və hədəfləri illik qəbul olunur və təşkilatın direktoru tərəfindən təsdiq edilir. Hazırki sənəd KİS daxilində təyin edilmiş məqsədlərin şirkətin missiya və strateji baxışına uyğun olaraq təyin olunmasını təmir edir.